# Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturunun və Əsasnaməsinin təsdiq edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturu və Əsasnaməsi təsdiq edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 18.04.1992-ci il tarixli 688 nömrəli fərmanının 5-ci bəndi və Azərbaycan Respublikası Prezidentinin 21.10.1992-ci il tarixli 183 nömrəli sərəncamının 1 nömrəli əlavəsi qüvvədən düşmüş hesab edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV***

***Bakı şəhəri, 27 oktyabr 1998-ci il***

***№ 7***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (28 oktyabr 1998-ci il, № 251) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 oktyabr 1998-ci il, № 10, maddə 615) («VneshExpertService» LLC).***

***19 iyun 2001-ci il tarixli, 510 nömrəli; 27 may 2002-ci il tarixli, 703 nömrəli; 23 oktyabr 2003-cü il tarixli, 962 nömrəli; 23 oktyabr 2003-cü il tarixli, 980 nömrəli; 3 avqust 2004-cü il tarixli, 109 nömrəli; 10 dekabr 2004-cü il tarixli, 157 nömrəli; 28 oktyabr 2009-cu il tarixli, 166 nömrəli; 21 dekabr 2009-cu il tarixli, 195 nömrəli; 10 fevral 2010-cu il tarixli, 219 nömrəli Fərmanlara əsasən dəyişikliklər və əlavələrlə («VneshExpertService» LLC).***

---

~~*Azərba ycan Respub likası Prezid*~~

*entinin 1998-ci il 27 oktyabr tarixli, 7 nömrəli fərmanı ilə təsdiq edilmişdir.*

## *Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturu:*

1. Sədr

2. Sədrin birinci müavini

3. Sədrin müavini

4. Sədrin müavini

5. Sədrin müavini

6. Sədrin köməkçisi

7. Gömrük Nəzarətinin təşkili Baş İdarəsi

8. Qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizə Baş İdarəsi

9. Maliyyə-Tarif və Valyuta Nəzarəti Baş İdarəsi

10. Kadrlar İdarəsi

11. Statistika və Təhlil İdarəsi

12. İşlər İdarəsi

13. Əsaslı Tikinti və Maddi-Texniki Təchizat İdarəsi

14. İnspeksiya İdarəsi

15. Xarici Əlaqələr şöbəsi

16. Mühasibat və uçot şöbəsi

17. Mətbuat xidməti şöbəsi

18. Hüquq şöbəsi

~~19. Məxfi şöbə~~

~~20. Növbətçi hissə~~

~~21. Təsərrüfat xidməti~~

~~22. Analitik şöbə~~

~~23. Mühafizə dəstəsi~~

### ~~*Dövlət Gömrük Komitəsinin sisteminə daxil olan gömrük orqanları və təşkilatları*~~

~~1. Naxçıvan Gömrük Komitəsi~~

~~2. Bakı Baş Gömrük İdarəsi~~

~~3. Hava nəqliyyatında Baş Gömrük İdarəsi~~

~~4. Astara gömrükxanası~~

~~5. Balakən gömrükxanası~~

~~6. Biləsuvar gömrükxanası~~

~~7. Əli-Bayramlı gömrükxanası~~

~~8. Yevlax gömrükxanası~~

~~9. Gəncə gömrükxanası~~

~~10. Sədərək gömrükxanası~~

~~11. Sumqayıt gömrükxanası~~

~~12. Tovuz gömrükxanası~~

~~13. Xaçmaz gömrükxanası~~

~~14. Xudafərin gömrükxanası~~

~~15. Culfa gömrükxanası~~

~~16. Mərkəzi laboratoriya~~

~~17. «Azərterminalkompleks» Xarici Əlaqələr Birliyi~~

~~18. Avtomobil təsərrüfatı~~

~~19. Tədris Mərkəzi~~

*Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 27 oktyabr tarixli 7 nömrəli fərmanı ilə* ***təsdiq edilmişdir.***

# Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə

1. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi Azərbaycan Respublikasında gömrük işi sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

2. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının Gömrük Məcəlləsini və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, eləcə də bu Əsasnaməni rəhbər tutur.

3. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ona həvalə edilmiş vəzifələri bilavasitə özü və ya tabeliyində olan gömrük orqanları, idarə və təşkilatlar vasitəsi ilə həyata keçirir.

4. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əsas funksiyaları aşağıdakılardır:

4.1. Azərbaycan Respublikasında gömrük işini təşkil etmək və onu təkmilləşdirmək;

4.2. Azərbaycan Respublikasının gömrük siyasətini həyata keçirmək;

4.3. Öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının iqtisadi mənafeyini və təhlükəsizliyini qorumaq;

4.4. Öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının gömrük ərazisinin vahidliyini təmin etmək;

4.5. Azərbaycan Respublikasında qabaqcıl gömrük tənzimlənməsi vasitələrinin tətbiqini təşkil etmək;

4.6. İcrasına nəzarət gömrük orqanlarına həvalə olunmuş gömrük işinə dair və digər qanunvericiliyinə əməl olunmasını təmin etmək;

5. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ona həvalə edilmiş funksiyalara əsasən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

5.1. Azərbaycan Respublikasının gömrük siyasətinin həyata keçirilməsi üçün hüquqi, iqtisadi, təşkilati mexanizmlər hazırlayır və onların həyata keçirilməsini təmin edir;

5.2. Azərbaycan Respublikasında gömrük işinin inkişafı proqramını hazırlayır və həyata keçirir;

5.3. Gömrük nəzarətinin həyata keçirilməsini və təkmilləşdirilməsini təşkil edir, bu cür nəzarətin səmərəliliyinə zərər vurmadan onun sadələşdirilməsi və təkmilləşdirilməsi üçün tədbirlər görür;

5.4. Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallar barəsində ~~lisenziyalaşdırma,~~ qiymətlərin tənzimlənməsi və digər qeyri-tarif tədbirləri də daxil olmaqla, iqtisadi proqramların işlənib hazırlanmasında iştirak edir və öz səlahiyyətləri daxilində onların həyata keçirilməsini təşkil edir;

5.5. Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallardan vergilərin, gömrük rüsumlarının, aksizlərin, habelə digər gömrük ödənişlərinin alınmasını*, beynəlxalq avtomobil daşımalarını yerinə yetirən xarici ölkələrin nəqliyyat vasitələrinə sərhəddə «İcazə» blanklarının verilməsinə görə dövlət rüsumunun tutulmasını* təşkil edir;

5.6. Malların gömrük dəyərinin düzgün müəyyən olunması üzərində nəzarət sistemini təşkil edir;

5.7. Gömrük rüsumlarının, *müvafiq dövlət rüsumlarının,* vergilərin vaxtında və tam həcmdə dövlət büdcəsinə köçürülməsini təmin edir;

5.8. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallarda lisenziya və ya ixtisas attestatları verir, onları ləğv edir, yaxud geri alır, reyestrinin aparılmasını təmin edir;

5.9. Mallar və nəqliyyat vasitələri Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilərkən müvafiq gömrük rejimlərindən səmərəli istifadəni təmin edir;

5.10. Malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsinə dair qaydaların işlənib hazırlanmasını təşkil və onların icrasını təmin edir;

5.11. Malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsini təşkil edir, onun təkmilləşdirilməsi və sadələşdirilməsi üçün tədbirlər görür;

*5.11-1. malların baytarlıq, fitosanitar, gigiyenik və digər sertifikatlarının (şəhadətnamələrinin) yoxlanılmasını, sərhəddə həmin mallar üzərində baytarlıq, fitosanitar, sanitariya nəzarətini həyata keçirir;*

*5.11-2. ərazisində heyvanların xüsusi təhlükəli xəstəliklərinin baş verməsi qeydə alınan qonşu ölkələrdən Azərbaycan Respublikasının ərazisinə keçən nəqliyyat vasitələrini baytarlıq qanunvericiliyində müəyyən edilmiş qaydada və müddətdə məcburi dezinfeksiya edir;*

*5.11-3. başqa ölkələrdən gətirilən heyvanların sağlamlığını müəyyənləşdirmək üçün onların təcrid olunmuş halda saxlanılmasının təmin edilməsi məqsədi ilə müvafiq ərazi dövlət baytarlıq müfəttişliyinə məlumat verir;*

5.12. Müstəqil surətdə, yaxud zəruri olduqda digər hüquq-mühafizə orqanları cəlb edilməklə gömrük nəzarəti zonası rejiminə riayət olunmasına nəzarəti təmin edir, gömrüyün infrastruktur obyektlərinin mühafizə sistemini təşkil edir, Azərbaycan Respublikasının gömrük sərhədinin qorunması məqsədi ilə digər tədbirlər də həyata keçirir;

5.13. İcrasına nəzarət Azərbaycan Respublikasının gömrük orqanlarına həvalə olunmuş gömrük işi üzrə və digər qanunvericilik aktlarına əməl olunmasını təmin edən tədbirlər sistemini hazırlayır və həyata keçirir;

*5.14. Rezident və qeyri-rezident tərəfindən milli və xarici valyutanın, eləcə də digər valyuta sərvətlərinin müvafiq qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının gömrük sərhəddindən keçirilməsinə, habelə Azərbaycan Respublikasının Gömrük Məcəlləsi ilə nəzərdə tutulmuş digər hallarda valyuta nəzarətini həyata keçirir;*

5.15. Qaçaqmalçılığa və gömrük işi sahəsində digər cinayətlərə qarşı mübarizə aparılmasını təşkil edir. Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən bu cür cinayətlər üzrə qüvvədə olan qanunvericilik aktlarına müvafiq olaraq təhqiqat *ibtidai istintaq* aparılmasını və əməliyyat-axtarış fəaliyyəti həyata keçirilməsini təmin edir;

5.16. Gömrük qaydalarının pozulmasına və Azərbaycan Respublikasının gömrük orqanlarının nominal fəaliyyətinə qəsd edən inzibati *xətalara* qarşı mübarizəni təşkil edir;

5.17. Narkotik vasitələrin və psixotrop maddələrin, silahların, Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvətləri olan əşyaların, intellektual mülkiyyət obyektlərinin, habelə digər malların gömrük sərhədindən qanunsuz keçirilməsinin qarşısını almaq məqsədi ilə tədbirlər sistemi hazırlayır və həyata keçirir;

*5.17-1. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində bioloji sərvətlərdən səmərəli istifadə edilməsi və onların qorunması üzrə dövlət siyasətinin hazırlanıb həyata keçirilməsində iştirak edir, öz*

*səlahiyyətləri daxilində bioloji sərvətlərin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi zamanı mövcud qanunvericiliyin tələblərinin yerinə yetirilməsi üzərində nəzarəti təmin edir*

5.18. Azərbaycan Respublikasının dəmir yolu vağzallarında, hava*və dəniz* limanlarında beynəlxalq nəqliyyat vasitələrinin fəaliyyətinə qanunsuz müdaxilənin qarşısının alınmasında və beynəlxalq terrorçuluqla mübarizədə Azərbaycan Respublikası hüquq-mühafizə orqanlarına köməklik göstərir;

5.19. Azərbaycan Respublikasının gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən qaçaqmalçılıq və gömrük işi sahəsində digər cinayətlər, gömrük qaydalarının pozulması işləri və Azərbaycan Respublikasının gömrük orqanlarının normal fəaliyyətinə qəsd edən inzibati *xətalar* haqqında işlər üzrə icraat zamanı, habelə əməliyyat-axtarış tədbirləri həyata keçirilərkən qanunçuluğa əməl olunmasına nəzarəti həyata keçirir;

5.20. Azərbaycan Respublikasının xarici ticarətinin gömrük və xüsusi gömrük statistikasının aparılmasını təşkil edir;

5.21. Müəyyən olunmuş qaydada gömrük statistikasına dair və digər gömrük işinə aid məlumatları Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və digər mərkəzi icra hakimiyyəti orqanlarına (onların fəaliyyətinə dair məsələlər üzrə) təqdim edir;

*5.22. Öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini təmin edir;*

5.23. Gömrük işi həyata keçirilərkən fiziki şəxslərin və təsərrüfat subyektlərinin hüquq və mənafelərinin müdafiəsi üzrə tədbirlər görür;

5.24. Azərbaycan Respublikası gömrük orqanlarının və onların vəzifəli şəxslərinin qərarlarından (o cümlədən normativ aktlarından), hərəkət və hərəkətsizliyindən şikayətetmə üzrə fiziki və hüquqi şəxslərin hüquqlarının reallaşdırılması üçün şərait yaradır;

5.25. Şikayətlərə və müraciətlərə vaxtında və tam baxılmasını təmin edir; fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin pozulmasını yaradan səbəblərin aradan qaldırılması üçün tədbirlər görür;

5.26. Öz səlahiyyətləri daxilində gömrük işi üzrə mühüm hüquqi aktların nəşrini təmin edir;

5.27. Azərbaycan Respublikasında gömrük işinin inkişafı və vəziyyətinə dair məlumat — izahat işləri aparır; bu məqsədlə kütləvi informasiya vasitələrindən və digər təbliğat vasitələrindən istifadə edir;

5.28. Konkret mallarla və ya təsərrüfat əməliyyatları ilə əlaqədar gömrük işi haqqında qanunvericilik aktlarının tətbiqi məsələləri üzrə öz qərarlarının qəbulu və fəaliyyət göstərməsini təmin edir;

5.29. Azərbaycan Respublikasında gömrük işi haqqında qanunvericiliyin tətbiqi təcrübəsini ümumiləşdirir və təhlil edir;

5.30. Gömrük işi məsələləri ilə məşğul olan beynəlxalq təşkilatların işində iştirak edir; Azərbaycan Respublikasının gömrük işinə dair beynəlxalq öhdəliklərinin yerinə yetirilməsini təmin edir;

5.31. Xarici dövlətlərin gömrük və digər səlahiyyətli orqanları ilə əməkdaşlığı və qarşılıqlı fəaliyyəti həyata keçirir;

5.32. Gömrük işi sahəsində elmi-tədqiqat işlərinin aparılmasını təşkil edir;

5.33. Xarici dövlətlərin gömrük siyasətini və bu dövlətlərdə gömrük işinin vəziyyətini öyrənir və təhlil edir;

*5.34. Müvafiq sahədə kadr hazırlığını təmin edir, həmçinin mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün tədbirlər görür;*

5.35. Gömrük idarələri, gömrükxanalar, gömrük postları, gömrük laboratoriyaları, elmi-tədqiqat və tədris müəssisələri, hesablama mərkəzləri yaradır və ləğv edir;

5.36. Azərbaycan Respublikası gömrük orqanlarının vahid avtomatlaşdırılmış məlumat sisteminin yaradılmasını, fəaliyyət göstərməsini və təkmilləşdirilməsini təmin edir;

5.37. Azərbaycan Respublikasında gömrük işinin inkişafı üzrə həyata keçirilən tədbirləri maliyyələşdirir;

5.38. Müəyyən olunmuş qaydada Azərbaycan Respublikası gömrük sisteminin büdcədənkənar inkişaf Fondunu idarə edir və onun üzərində sərəncam verir;

5.39. Gömrük orqanlarının, gömrük laboratoriyalarının, tabeçiliyində olan digər idarə, müəssisə və təşkilatların maddi-texniki və sosial bazasını inkişaf etdirir;

*5.40. Gömrük orqanlarının vəzifəli şəxslərinin, gömrük laboratoriyalarının, həmçinin tabeliyindəki digər idarələrin, müəssisələrin, təşkilatların işçilərinin dövlət və sosial müdafiəsini, fiziki hazırlığını təmin edir, onların tibbi təminatını həyata keçirir;*

*5.40-1. Xidməti-tətbiqi idman növlərinin inkişafı proqramlarını, bədən tərbiyəsi və idman tədbirlərinin təqvim planlarını, hərbi idman kompleksinin normativlərini təsdiq edir;*

5.41. Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona həvalə edilmiş digər vəzifələri yerinə yetirir.

6. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq aşağıdakı hüquqları vardır:

6.1. Azərbaycan Respublikasının gömrük siyasətinin təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq;

6.2. Gömrük işi haqqında qanunvericilik aktlarının və digər hüquqi aktların layihələrini hazırlamaq;

6.3. Xarici sərmayələrin cəlb edilməsi və ixracın stimullaşdırılması da daxil olmaqla, iqtisadiyyat sahəsində Azərbaycan Respublikasının dünya birliyi ilə qarşılıqlı münasibətlərinin tənzimlənməsi mexanizmini təkmilləşdirmək haqqında təkliflərin hazırlanmasında iştirak etmək;

6.4. Dövlət təhlükəsizliyinin, ictimai asayişin, əhalinin mənəviyyatının, insanların həyat və sağlamlığının, heyvan və bitkilərin, ətraf mühitin qorunması, daxili bazarın və Azərbaycan istehlakçılarının mənafeyinin müdafiəsi üzrə tədbirlərin həyata keçirilməsində Azərbaycan Respublikası gömrük orqanlarının iştirakını təmin etmək;

6.5. Azərbaycan Respublikası üçün mühüm əhəmiyyət kəsb edən malların və materialların ixracına, habelə mədəni sərvətlərin aparılmasına nəzarətin təşkilində iştirak etmək;

6.6. Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallara aid gömrük rüsumlarının, vergilərin, habelə digər ödənişlərin dərəcələri və tətbiq mexanizminin təkmilləşdirilməsi haqqında müəyyən olunmuş qaydada təkliflər vermək;

6.7. Xarici-iqtisadi fəaliyyətin müvafiq mal nomenklaturasının aparılmasını, habelə onun hazırlanması, dəyişdirilməsi və ona əlavələr edilməsi üzrə işi təşkil etmək;

6.8. Gömrük rejimlərinin hüquqi tənzimləmə xüsusiyyətlərini müəyyən etmək;

6.9. Ayrı-ayrı kateqoriyalı malların sərbəst gömrük zonalarına və sərbəst anbarlara yerləşdirilməsini məhdudlaşdırmaq və ya qadağan etmək;

6.10. Ticarət məqsədləri üçün nəzərdə tutulmayan malların fiziki şəxslər tərəfindən keçirilməsinin sadələşdirilmiş, güzəştli qaydalarını müəyyən etmək;

6.11. Gömrük brokerlərinin və gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərin fəaliyyətinin hüquqi tənzimləmə xüsusiyyətlərini müəyyən etmək;

6.12. Ona həvalə edilmiş vəzifə və funksiyaları yerinə yetirmək üçün mərkəzi icra hakimiyyəti orqanları da daxil olmaqla hüquqi-təşkilati formasından asılı olmayaraq, müəssisələrdən və təşkilatlardan, habelə vəzifəli şəxslərdən və fiziki şəxslərdən sənədlər və məlumatlar tələb etmək;

6.13. Gömrük işi məsələləri üzrə koordinasiya və ekspert şuraları, işçi qrupları və müvəqqəti yaradıcı kollektivlər təşkil etmək; gömrük işi və gömrük siyasəti problemlərinin həlli məqsədi ilə müqavilə əsasında xarici ölkələrin mütəxəssisləri və alimləri də daxil olmaqla, elmi müəssisələri, alimləri və mütəxəssisləri cəlb etmək;

6.14. Rabitə və məlumatların ötürülməsinin xidməti sistemini yaratmaq;

6.15. Tabeçiliyindəki idarələrin, müəssisələrin və təşkilatların fəaliyyətinə rəhbərlik etmək, onların əsasnamələrini və nizamnamələrini təsdiq etmək, onların rəhbərlərini təyin etmək, maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını və təftişini həyata keçirmək;

6.16. Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

7. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi öz səlahiyyətləri daxilində gömrük işi üzrə Azərbaycan Respublikasının bütün ərazisində qüvvədə olan, Azərbaycan Respublikasının bütün dövlət orqanları, hüquqi-təşkilati formasından asılı olmayaraq idarələr, müəssisələr və təşkilatlar, habelə vəzifəli şəxslər və fiziki şəxslər tərəfindən icrası məcburi olan normativ aktlar qəbul edir.

*7-1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturu Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.*

8. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin idarəedilməsi aşağıdakı qaydada təşkil edilir:

8.1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə sədr rəhbərlik edir;

8.2. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Azərbaycan Respublikası Prezidenti tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad olunur;

8.3. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin müavinləri sədrin təklifinə əsasən Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad olunur;

8.4. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri:

- Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsini təmsil edir, Azərbaycan Respublikasının digər dövlət orqanları ilə onun qarşılıqlı fəaliyyətini təmin edir;
- Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin müavinləri arasında vəzifə bölgüsü aparır;
- Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin səlahiyyətləri daxilində normativ aktları imzalayır (təsdiq edir) və onların icra vəziyyətinin yoxlanmasını təşkil edir;
- Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərini, gömrük laboratoriyalarının və tabeçiliyindəki digər idarə, müəssisə və təşkilatların əməkdaşlarını vəzifəyə təyin edir və vəzifədən azad edir;
- *Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin aparatının struktur bölmələrinin və tabeliyində olan qurumların əsasnamələrini təsdiq edir, tabeliyində olan hüquqi şəxslərin nizamnamələrini isə təsdiq edilməsi üçün müəyyən olunmuş qaydada təqdim edir;*
- *müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin aparatının, yerli və digər qurumlarının strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində onların xərclər smetasını təsdiq edir;*;

- öz səlahiyyətləri daxilində gömrük orqanlarının vəzifəli şəxslərinə və tabeliyindəki müəssisələrin işçilərinə xüsusi rütbələr verir; ali rəhbər heyətindən olan vəzifəli şəxslərə xüsusi rütbələrin verilməsi haqqında müəyyən edilmiş qaydada təqdimat verir;
- gömrük orqanlarının və tabeliyindəki digər müəssisə və təşkilatların işçilərini mükafatlandırır;
- xüsusilə fərqlənmiş əməkdaşlara Azərbaycan Respublikasının fəxri adlarının verilməsi və ya onların dövlət mükafatları ilə təltif olunması üçün müəyyən olunmuş qaydada təqdimat verir;
- gömrük orqanlarının əməkdaşları, gömrük laboratoriyaları və tabeliyindəki digər idarə, müəssisə və təşkilatların işçiləri barəsində Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş intizam təsiri tədbirlərini tam şəkildə tətbiq edir;
- ona verilmiş ayrı-ayrı səlahiyyətlərdən tabeçiliyindəki vəzifəli şəxslərin istifadə etməsinə icazə verir;
- Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq digər hüquqlardan da istifadə edir və başqa funksiyaları da həyata keçirir.

9. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində sədrdən (Kollegiyanın sədri) və sədrin müavinlərindən, *Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Aparatının,* habelə gömrük orqanlarının, gömrük laboratoriyalarının, tabeçilikdə olan digər idarə, müəssisə və təşkilatların rəhbər işçilərindən ibarət kollegiya təşkil olunur. Kollegiyanın tərkibi vəzifələr üzrə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir.

9.1. Kollegiya öz iclaslarında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin fəaliyyəti ilə bağlı mühüm məsələlərə baxır və onlar haqqında qərarlar çıxarır.

9.2. Kollegiyanın qərarı Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin əmrləri ilə həyata keçirilir.

10. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi dövlət büdcəsinin vəsaiti hesabına və həmçinin Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.

11. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi hüquqi şəxsdir, onun üzərində Azərbaycan Respublikasının Dövlət gerbi təsvir olunmuş və öz adı yazılmış möhürü, müvafiq möhür və ştampları, banklarda və kredit təşkilatlarında hesabı (o cümlədən valyuta hesabı) vardır.

*© VneshExpertService*